1_Layout 1 13.07.2023 16:10 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*

**İlham ƏLİYEV**

DİN DAXİLİ QOŞUNLAR

# ƏSGƏR

№ 14 (653)

15 iyul 2023-cü il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

# İLHAM ƏLİYEV QOŞULMAMA HƏRƏKATINI DAHA GÜCLÜ QLOBAL TƏSİSATA ÇEVİRİB

**"Azərbaycan" qəzetinin müxbiri Yasəmən Musayevanın müəllifi olduğu "İlham Əliyev Qoşulmama Hərəkatını daha güclü qlobal təsisata çevirib" başlıqlı məqalənin ictimai aktuallığını nəzərə alaraq ixtisarla oxucularımıza təqdim edirik.**

Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi COVID-19 pandemiyasının dünyada tüğyan etdiyi bir zamanla üst-üstə düşsə də, həmin çətin dövrdə ölkəmiz QH sədrliyi qismində mühüm beynəlxalq təşəbbüslərlə çıxış edib və ölkəmizin qlobal problemdən həmrəylik sayəsində çıxma təklifləri Hərəkata üzv dövlətlər tərəfindən yekdilliklə dəstəklənib ki, bu da nəticədə qlobal bəladan birgə çıxış üçün geniş imkanlara yol açıb.

### Etimadları doğruldan fəaliyyət

BMT-dən sonra dünyanın ikinci ən böyük təşkilatı olan Qoşulmama Hərəkatına 2011-ci ildə tamhüquqlu üzv olan Azərbaycan 120 ölkəni birləşdirən hərəkatın təşəbbüslərinə çox aktiv şəkildə qoşulub.

Hərəkata üzv olduğu qısa zamanda həyata keçirdiyi xarici siyasət sayəsində bu təsisat daxilində də böyük nüfuz və etimad qazanan ölkəmiz 2019-cu ildə Bakıda Qoşulmama Hərəkatının Zirvə toplantısını müvəffəqiyyətlə həyata keçirib, 2019-2022-ci illərdə sədrliyi üzərinə götürüb. Ölkəmizin sədrlik dövründə uğurlu fəaliyyəti və ona olan yüksək etimadın nəticəsi olaraq QH-yə üzv ölkələrin yekdil qərarı ilə Azərbaycanın sədrliyi bir il daha uzadılıb.

Azərbaycan Qoşulmama Hərəkatına uğurla sədrlik etdiyi ötən illər ərzində öz fəaliyyətini tarixi "Bandunq prinsipləri" üzərində qurub. "Bandunq prinsipləri" bütün ölkələrin suverenliyinə, ərazi bütövlüyünə hörmət, dövlətlərin daxili işlərinə qarışmamaq və qarşılıqlı maraqların qorunması və əməkdaşlığın təşviqini özündə ehtiva edir.

Hərəkata sədrlik etdiyi dövrdə Prezident İlham Əliyevin təşəbbüsü ilə təşkilat tərəfindən mühüm qlobal tədbirlər həyata keçirilib, xüsusən QH-nin pandemiya ilə mübarizə tədbirləri beynəlxalq səviyyədə təqdir olunub.

"Beynəlxalq ictimaiyyət COVID-19 pandemiyası ilə necə mübarizə aparacağı barədə çaşqın vəziyyətdə olarkən, misli görünməmiş bu çağırışla mübarizədə qlobal səyləri birləşdirən Qoşulmama Hərəkatı oldu", - deyən Prezident İlham Əliyev qeyd edib ki, 2020-ci ilin mayında Azərbaycanın təşəbbüsü ilə təşkil edilmiş Qoşulmama Hərəkatının liderlər səviyyəsində onlayn sammiti 2020-ci ilin dekabrında BMT Baş Assambleyasının xüsusi sessiyasının keçirilməsi ilə nəticələndi. Bundan əlavə, Qoşulmama Hərəkatının bəzi zəngin ölkələr tərəfindən yürüdülən "peyvənd millətçiliyi"nə güclü etirazı və bunun ardınca bütün ölkələr üçün peyvəndlərə ədalətli və universal çıxışla bağlı BMT qətnamələrinin qəbul edilməsi Qoşulmama Hərəkatının koronavirusla mübarizədə liderliyinə dəlalət edir. Hərəkata sədrliyi dövründə ehtiyacı olan ölkələrə yardım göstərmək Azərbaycanın sədrliyinin digər prioriteti olub. Belə ki, ölkəmiz əksəriyyəti Qoşulmama Hərəkatına üzv olan 80-dən çox ölkəyə ya ikitərəfli qaydada, ya da Ümumdünya Səhiyyə Təşkilatı vasitəsilə COVID-19 ilə bağlı maliyyə və humanitar dəstək göstərib.




### Hərəkatın gələcəyinə mühüm miraslar

Ölkəmizin sədrliyi ilə hərəkatın institusional inkişafı istiqamətində də xeyli nailiyyətlər qazanılıb. Qoşulmama Hərəkatının 2021-ci və 2022-ci illərdə Parlament Şəbəkəsinin, eləcə də Gənclər Təşkilatının təsis edilməsi Prezident İlham Əliyevin təşəbbüslərinin tarixi əhəmiyyətli nəticələridir.

Hazırda isə Azərbaycanın sədrliyi ilə Qoşulmama Hərəkatının qadınlar platformasının yaradılması üzərində iş gedir.

"Multilateralizmin əsl müdafiəçisi və BMT-dən sonra ikinci böyük təsisat kimi Qoşulmama Hərəkatı yenidən formalaşan dünya nizamında öz yerini tapmalıdır", - deyən Prezident İlham Əliyev bildirib ki, biz "Bandunq prinsipləri" ətrafında qətiyyətlə dayanmalı, suverenliyin və ərazi bütövlüyünün pozulması, ölkələrin daxili işlərinə müdaxilə hallarına qarşı öz səsimizi ucaltmalıyıq. Hərəkatımızın dünya məsələlərində daha ön mövqedə olması mühüm əhəmiyyət kəsb edir.

Hazırda dünyada baş verən qlobal-miqyaslı problemlərə toxunan İlham Əliyev vurğulayıb ki, hazırda beynəlxalq təşkilatlar, xüsusilə BMT bəşəriyyətin gözləntilərinə cavab vermir. BMT-də ciddi islahatların aparılması qaçılmazdır. BMT Təhlükəsizlik Şurasında Qoşulmama Hərəkatına bir daimi yer verilməlidir: "Zənnimizcə, Qoşulmama Hərəkatına, İslam Əməkdaşlıq Təşkilatına və Afrika İttifaqına sədrlik edən ölkələr BMT Təhlükəsizlik Şurasında veto hüququ ilə rotasiya əsasında yer almalıdırlar".

### Fransa iyrənc əməllərinə görə üzr istəməlidir

Neokolonializmi hələ də davam etdirən ölkələrdən birinin Fransa və bu ölkənin Avropadan kənarda idarə etdiyi ərazilərin fransız müstəmləkə imperiyasının iyrənc qalıqları olduğunu deyən Prezident İlham Əliyev qeyd edib ki, Fransa öz müstəmləkə keçmişinə, qanlı müstəmləkə cinayətlərinə və soyqırımı aktlarına görə Qoşulmama Hərəkatına üzv olan Afrika, Cənub-Şərqi Asiya ölkələrindən və digər ölkələrdən üzr istəməlidir: "Təəssüf ki, Fransa Azərbaycanın Qarabağ bölgəsində erməni separatizmini dəstəkləyərək, geosiyasi rəqabət, xarici hərbi mövcudluq və "Orientalizm" müstəmləkəçilik siyasəti ilə Cənubi Qafqaz regionunda da eyni mənfur təcrübəni tətbiq etməyə çalışır".

### Hərəkatın ən uğurlu dövrü

Xüsusi bir məqamı qeyd edək ki, həm işğal zamanı, həm də işğaldan sonra Qoşulmama Hərəkatına üzv ölkələr Azərbaycanın haqlı və ədalətli mövqeyini dəstəkləyiblər. Elə sözügedən görüşdə bu məqama toxunaraq QH-yə üzv ölkələrə minnətdarlığını bildirən Azərbaycan Prezidenti vurğuladı ki, xüsusilə 2020-ci və 2022-ci illərdə Qoşulmama Hərəkatı ölkələrinin BMT Təhlükəsizlik Şurasında Azərbaycan əleyhinə olan birtərəfli və qərəzli bəyanatların qəbul edilməsinin qarşısını aldıqları iki hala istinad edir. Dünyada nüfuzu sürətlə artan və fəaliyyətində daim sülhü, tolerantlığı, multikultural dəyərləri təbliğ edən ölkəmiz bəşəri qərarların qəbul olunmasına və icrasına töhfələr bəxş edir. Buna görədir ki, 120 ölkəni birləşdirən mühüm siyasi təşkilat olan Qoşulmama Hərəkatı məhz Azərbaycanın sədrliyi dövründə özünün ən uğurlu dövrünü yaşayır və güclü qlobal platformaya çevrilib.

# AZƏRBAYCAN POLİSİNİN XİDMƏTİ DÖVLƏTƏ VƏ XALQA SƏDAQƏTİN NÜMUNƏSİDİR





Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə təsadüf edən Azərbaycan Polisinin yaranmasının növbəti ildönümü münasibətilə nazirliyin şəxsi heyəti Fəxri xiyabana gələrək Ulu Öndərin abidə kompleksi önünə tər çiçək dəstələri düzüblər. Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın xatirəsi ehtiramla yad edilib.

Respublikanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş mərd mübarizlərin uyuduğu Şəhidlər xiyabanı da ziyarət olunub.

Silsilə tədbirlər Daxili İşlər Nazirliyinin Polis Akademiyasında davam edib. Burada nazir general-polkovnik Vilayət Eyvazovun iştirakı ilə "Polis Günü"nə və 2022-2023-cü tədris ilinin buraxılışına həsr olunmuş təntənəli mərasim keçirilib.

Tədbirdə əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin, habelə respublikamızın ərazi bütövlüyü uğrunda döyüşlərdə şəhidlik zirvəsinə ucalmış və xidməti vəzifələri yerinə yetirərkən həlak olmuş polis əməkdaşlarının xatirəsi yad olunub.

Sonra peşə bayramı münasibətilə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin təbriklərini və ən xoş arzularını şəxsi heyətə çatdıran general-polkovnik Vilayət Eyvazov ötən 105 ildə polisin keçdiyi şərəfli və zəngin xidmət yolundan, yaratdığı dəyərli ənənələrdən, xüsusən Ulu Öndər Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi dövrlərdə daxili işlər orqanlarının fəaliyyətinin təşkili, milli ruhlu vətənpərvər kadrlarla möhkəmlənməsi sahəsində gördüyü mühüm işlərdən danışıb.

Həmçinin dövlət başçısı cənab İlham Əliyevin xüsusi diqqət və qayğısı sayəsində Daxili İşlər Nazirliyinin fəaliyyətinin və infrastrukturunun təkmilləşdirilməsi, o cümlədən maddi-texniki bazasının və qabaqcıl texnologiyalarla təchizatının müasir dövrün tələblərinə və standartlarına cavab verən səviyyəyə çatdırılması, əməliyyat-xidməti fəaliyyətin vətəndaş məmnunluğunun təmini prinsipləri üzərində qurulması ilə bağlı həyata keçirilmiş tədbirləri vurğulayıb.

*Davamı 2-ci səhifədə.*

2_Layout 1 14.07.2023 8:23 Page 1



# AZƏRBAYCAN POLİSİNİN XİDMƏTİ DÖVLƏTƏ VƏ XALQA SƏDAQƏTİN NÜMUNƏSİDİR

*Əvvəli 1-ci səhifədə.*

Hər bir şəxsin qanuni mənafeyinin, hüquq və azadlıqlarının etibarlı təmin olunması üçün davamlı tədbirlərin həyata keçirildiyini, vətəndaşlarımızın da bəhrələndiyi çoxsaylı məlumatlandırma-maarifləndirmə sistemlərinin istifadəyə verildiyini qeyd edib. Polisin professionallığının yeni keyfiyyət səviyyəsinə yüksəldilməsi istiqamətində sistemli tədbirlərin görülməsinə, o cümlədən bütün peşə tələblərinə cavab verən xüsusi qurumun – Təlim Mərkəzinin yaradılmasına, şəxsi heyətin planlı şəkildə həmin Mərkəzdə və Polis Akademiyasında ixtisasartırma və yenidən hazırlıq kurslarına cəlb olunmasına və minlərlə əməkdaşın başqa ölkələrdə keçirilən treninq və konfranslarda iştirak etməsinə diqqət çəkib.

Nazir xidməti vəzifələrin dəqiq və qüsursuz yerinə yetirilməsində dürüstlük, prinsipiallıq və məsuliyyət kimi keyfiyyətlərin böyük önəm kəsb etdiyini, cinayətlərin açılmasının yüksək səviyyədə saxlanılmasının, hüquqpozmaların profilaktikasının daha da yaxşılaşdırılmasının, orqan və hissələrin mürəkkəb şəraitdə xidmət aparmaq bacarıqlarının artırılmasının, bütövlükdə xalqa xidmət funksiyalarının daha təkmil icrası üçün əlavə tədbirlərin həyata keçirilməsinin başlıca vəzifələr olduğunu şəxsi heyətə çatdırıb.

Eyni zamanda bildirib ki, son 20 ildə cinayətlərin qarşısının alınması, açılması, istintaqı, bütövlükdə vətəndaşların qanuni mənafelərinin qorunması sahəsində davamlı iş aparılıb, o cümlədən 24 minə yaxın cinayətkar qrup və dəstə zərərsizləşdirilib, əllərdə qanunsuz saxlanılan 22 mindən çox odlu silah yığılıb və onun tətbiqi ilə törədilən hüquqazidd əməllərin sayı xeyli azalıb. Cinayətlərin orta hesabla 87 faizinin açılması təmin olunub, axtarışda olan 69 mindən çox təqsirləndirilən şəxs tutulub, qanunsuz dövriyyədən 20 tona yaxın narkotik vasitə çıxarılıb. Eləcə də cinayətkarlıqla mübarizədə, xüsusən narkotiklərin qanunsuz dövriyyəsinin qarşısının alınmasında vətəndaşların iştirakını, onların məlumatları əsasında müsbət nəticələri olan bir çox əməliyyatların keçirildiyini vurğulayıb. Vətəndaşların ərizə və şikayətlərinin obyektiv və həssaslıqla araşdırılması, qanunçuluğun qorunması, şəxsi heyətin etik davranış qaydalarına riayət etməsi kimi mühüm vəzifələrin səmərəli icrasının vacibliyinə toxunub.







Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında möhtəşəm qələbəmizlə nəticələnmiş Vətən müharibəsindən sonra regionda yeni reallıqların yarandığını nəzərə çatdıran nazir V.Eyvazov işğaldan azad edilmiş ərazilərə "Böyük qayıdış"ın ilk addımlarının atıldığını, belə bir taleyüklü dönəmdə polis orqanlarının və Daxili Qoşunların fəaliyyətinin də mövcud vəziyyətə uyğunlaşdırıldığını, bütövlükdə Qarabağ və Şərqi Zəngəzurda asayişin və təhlükəsizliyin etibarlı təmin edildiyini, xidmətin böyük əzm və peşəkarlıqla davam etdirildiyini bildirib.

Nazir xidməti vəzifələrin icrasında daxili işlər orqanlarına hər zaman yardımçı olan, polisin peşə bayramının sevincini bölüşən vətəndaşlara, polis veteranlarına, dövlət qurumlarının rəhbərlərinə və əməkdaşlarına, qeyri-hökumət təşkilatlarının və medianın nümayəndələrinə təşəkkürünü bildirib.

Qazanılan uğurlarda Azərbaycan polisinin müasir dünyagörüşlü yeni nəslini yetirən Polis Akademiyasının da xüsusi rolunu qeyd edən V.Eyvazov məzunları təhsili başa vurmaları münasibətilə təbrik edib, eləcə də bu təhsil müəssisəsini fərqlənmə ilə bitirmiş məzunlara diplomlar və "polis baş leytenantı" xüsusi rütbələrinin paqonlarını təqdim edib.

General-polkovnik Vilayət Eyvazov təntənəli mərasimin iştirakçıları adından Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevi əmin edib ki, öz andına həmişə sadiq olan daxili işlər orqanları bundan sonra da Vətənə və xalqa şərəflə xidmət edəcək, bu yolda qüvvə və bacarığını əsirgəməyəcək.

Təntənəli tədbir şəxsi heyətin mətin addımlarla tribuna qarşısından keçidi ilə yekunlaşıb.

**DİN-in Mətbuat xidməti**

# DAXİLİ İŞLƏR NAZİRLİYİ MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

İyulun 10-da Daxili İşlər Nazirliyində 2023-cü ilin 6 ayında əməliyyat-xidməti fəaliyyətin yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş Kollegiya iclası keçirilib.

İclası giriş sözü ilə açan respublikanın Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov bu ilin birinci yarısının da növbəti uğurlu hesabat dövrlərindən olduğunu, daxili işlər orqanları və Daxili Qoşunların cinayətkarlıqla mübarizə, ictimai asayişin qorunması, insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində gündəlik vəzifələrin öhdəsindən layiqincə gəldiyini, beynəlxalq və respublika əhəmiyyətli kütləvi tədbirlərdə təhlükəsizliyin etibarlı təmin edildiyini vurğulayıb.

Nazir məmnunluqla qeyd edib ki, daxili işlər orqanlarının fəaliyyətini həmişə yüksək qiymətləndirən cənab Prezidentin sərəncamları ilə ictimai təhlükəsizliyin və asayişin təmin edilməsində, cinayətkarlığa qarşı mübarizədə xüsusi xidmətlərinə, qarşıya qoyulmuş tapşırıqların icrasında fərqləndiklərinə görə 38 əməkdaş və hərbi qulluqçu dövlət mükafatlarına layiq görülüb, habelə rəhbər vəzifəli 4 əməkdaşa ali xüsusi rütbə verilib.

İlin ikinci yarısında da qarşıda mühüm vəzifələrin durduğunu qeyd edən general-polkovnik V.Eyvazov onların ətraflı müzakirəsinin, xidməti fəaliyyətin təkmilləşdirilməsi üçün əlavə təşkilati tədbirlərin müəyyən edilib həyata keçirilməsinin vacibliyini bildirib.





Hesabat məruzəsi ilə çıxış edən nazirin birinci müavini polis general-leytenantı Seyfulla Əzimov ötən 6 ayda əməliyyat-axtarış və istintaq fəaliyyətinin subyekti olan bütün dövlət qurumları üzrə 19.533 cinayət qeydə alındığını və bu cinayətlərin 95,5 faizinin (18.661-i) daxili işlər və prokurorluq orqanları tərəfindən prosessual qaydada araşdırılan hüquqazidd əməllər olduğunu bildirib. Eləcə də 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə qəsdən adamöldürmələrin 15,4, qəsdən sağlamlığa ağır zərərvurmaların 12,3, əzab vermələrin 22,2, odlu silahın tətbiqi ilə törədilən cinayətlərin 21,7, adam oğurluqları və quldurluqların hər birinin 25, soyğunçuluqların 8,4, xuliqanlıqların 16,6, oğurluqların 1,7, onlardan mənzillərdən edilənlər 21,7, ailə münaqişəsi zəminində baş vermiş cinayətlərin 1,4, ictimai yerlərdə qeydə alınmış cinayətlərin 13,6 faiz azaldığını qeyd edib.

Kriminal qəsdlərin qurbanlarının pozulmuş hüquqlarının bərpası istiqamətində həyata keçirilmiş istintaq hərəkətləri və əməliyyat tədbirləri ilə ümumi cinayətlərin 90 faizinin, o cümlədən "isti izlər"lə 1605 cinayətin açıldığını, 4587 hüquqazidd əməlin qarşısının alındığını, axtarışda olan 3291 şəxsin tutulduğunu, dövlətə, hüquqi və fiziki şəxslərə dəymiş maddi ziyanın 79,4 faizinin ödətdirildiyini vurğulayıb.

Məruzəçi mütəşəkkil cinayətkarlığa qarşı mübarizədə həyata keçirilmiş tədbirlərlə 395 kriminal qrupun zərərsizləşdirildiyini, qanunsuz olaraq odlu silah saxlayan və daşıyan 275 nəfərin cinayət məsuliyyətinə cəlb edildiyini, ötən ilin 6 ayı ilə müqayisədə qeyri-leqal dövriyyədən 946 kiloqram çox – 2 ton 921 kiloqram narkotik vasitə çıxarıldığını, qanunsuz kultivasiya olunan 143 ton narkotik xassəli bitkinin aşkarlanıb məhv edildiyini nəzərə çatdırıb.

Həmçinin vətəndaşların qəbulu və müraciətlərinə baxılması sahəsində mühüm vəzifələrin icrası çərçivəsində mediada qabaqcadan məlumat verilməklə 2318 vətəndaşın qəbulunun həyata keçirildiyini, qaldırılan məsələlərin əksəriyyətinin öz qanuni həllini tapdığını bildirib.

Məruzəətrafı çıxışlarda nazirliyin bir sıra baş idarələrinin, Polis Akademiyasının və ərazi polis orqanlarının rəhbərləri görülmüş işlər, əldə olunmuş nəticələr, eyni zamanda, fəaliyyətdə olan nöqsan və çatışmazlıqların aradan qaldırılması üzrə planlaşdırılan tədbirlər barədə məlumat veriblər.

Kollegiya iclasına yekun vuran nazir general-polkovnik V.Eyvazov cinayətkarlığa qarşı mübarizədə, qanunçuluğun və hüquq qaydasının qorunması sahəsində müsbət nəticələrin inkişaf etdirildiyini vurğulayaraq xidməti fəaliyyətin səmərəliliyinin daha da artırılması ilə bağlı tapşırıq və tövsiyələrini verib.

Eyni zamanda, vətəndaş məmnunluğunun təmin edilməsinin Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin müəyyənləşdirdiyi əsas vəzifələrdən olduğunu xatırladan nazir cinayətlərin qarşısının alınması, açılması, hüquqazidd əməllər nəticəsində vurulmuş maddi ziyanın ödətdirilməsi, müraciətlərə baxılması və qəbul işinə daha böyük həssaslıqla yanaşılmasını tələb edib.

Narkotiklərlə mübarizənin vəziyyətinə toxunan nazir V.Eyvazov son illər müvafiq sahədə görülən işləri müsbət qiymətləndirib. Yeniyetmələr və gənclər arasında aparılan antinarkotik təbliğatın əhəmiyyətini nəzərə çatdıraraq bu qəbildən tədbirlərin davamlı və məqsədyönlü olması, fəaliyyətin ölkədə narkotiklərə olan tələbatın azaldılması məqsədi üzərində qurulması ilə bağlı göstərişlər verib.

Nazir cinayətkarlığa, o cümlədən narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizədə vətəndaşların və medianın fəal iştirakına da toxunaraq onlara, habelə respublikada ağır və xüsusilə ağır cinayətlərin qarşısının alınması, istintaqı, keçmiş illərdən bağlı qalmış 258 cinayətin açılmasında birgə səmərəli fəaliyyətlərinə görə Baş Prokurorluğun və ərazi prokurorluqlarının əməkdaşlarına təşəkkürlərini ifadə edib.

Müasir texnologiyaların tətbiqinin və idarəetmədə elektronlaşdırmanın genişləndirilməsinin zəruriliyini, hüquqi və fiziki şəxslərə məxsus obyektlərin, mənzillərin mühafizə-siqnalizasiya vasitələri ilə təmin edilməsinin, hər bir şəxsin hüquq və azadlığının, qanuni mənafeyinin etibarlı müdafiəsinin, bütövlükdə polisin xalqa xidmət işini peşəkarlıqla yerinə yetirməsinin vacibliyini nəzərə çatdırıb.

Nazirliyin tədris müəssisələrində tədris və təlim prosesinin qabaqcıl beynəlxalq təcrübə əsasında inkişaf etdiyini də qeyd edən general-polkovnik Vilayət Eyvazov ixtisaslı kadr hazırlığı, kursant və dinləyicilərdə analitik düşüncə tərzinin, müasir texnologiyalarla işləmək və ekstremal şəraitdə düzgün qərar çıxarmaq bacarığının formalaşdırılması üzrə görülən işlərə, bu istiqamətdə əldə olunmuş müsbət nəticələrə diqqət çəkib, möhkəm intizamın təməli sayılan döyüş, fiziki, mənəvi-psixoloji və sıra hazırlığının yüksəldiyini bildirib.

Kollegiyada müzakirə olunan məsələ üzrə qarşıda duran vəzifələrlə bağlı qərar qəbul edildi və növbəti iclasda onun icra vəziyyətinə dair hesabatların dinləniləcəyi qeyd olundu.

General-polkovnik V.Eyvazov daxili işlər orqanlarına göstərdiyi ali diqqətə, fəaliyyətinə verdiyi böyük dəyərə və etimadına görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə bütün şəxsi heyət adından dərin minnətdarlığını bildirib və əmin edib ki, respublikada ictimai asayişin mühafizəsi, qanunçuluğun və hüquq qaydasının qorunması sahəsində vəzifələr bundan sonra da layiqincə və tam yerinə yetiriləcəkdir.

# DAXİLİ QOŞUNLARIN BAŞ İDARƏSİNDƏ HƏRBİ ŞURANIN NÖVBƏTİ İCLASI KEÇİRİLİB

İyul ayının 8-də Daxili Qoşunların Baş İdarəsində "2023-cü ilin 1-ci yarımilində Daxili Qoşunların xidməti-döyüş fəaliyyətinin yekunları"na həsr olunmuş Hərbi Şuranın növbəti iclası keçirilib.

Giriş sözü ilə iclasda çıxış edən Hərbi Şuranın sədri, Daxili işlər nazirinin müavini-daxili qoşunların komandanı general-leytenant Şahin Məmmədov qeyd edib ki, 2023-cü



ilin 1-ci yarımilində Daxili Qoşunlar tərəfindən qarşıya qoyulmuş xidməti-döyüş tapşırıqlarının icrası təmin olunmuşdur.

Daxili qoşunların komandanı iclasın gündəliyini elan etdikdən sonra Daxili qoşunlar komandanının 1-ci müavini-qərargah rəisi general-mayor Tofiq Hüseynov məruzə ilə çıxış edib.

Məruzədə bildirilib ki, Respublika Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü siyasət nəticəsində ordu quruculuğunun inkişafı və işğaldan azad olunmuş ərazilərdə yenidənqurma və bərpa işləri yüksək templə davam etdirilmişdir. Daxili İşlər Nazirliyinin vahid sisteminin mühüm struktur qurumlarından biri olan Daxili Qoşunlar tərəfindən 2023-cü ilin 1-ci yarımilində mühüm dövlət, ictimai-siyasi və idman tədbirlərində Daxili Qoşunların şəxsi heyəti polis əməkdaşları ilə birlikdə ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsində fəal iştirak etmiş, müəyyən edilmiş tapşırıqlar layiqincə yerinə yetirilmişdir.

Ölkəmizin müstəqilliyinin və daxili sabitliyin qorunmasında xüsusi xidmətləri olan Daxili Qoşunların şəxsi heyəti 1-ci yarımil ərzində ictimai təhlükəsizliyin təmin edilməsində və ictimai qaydanın qorunmasında, cinayətkarlığa qarşı mübarizədə fəal iştirak edərək, qarşıya qoyulmuş tapşırıqların icrasını tam təmin etməklə yüksək peşəkarlığa,




döyüş və mənəvi-psixoloji hazırlığa malik olduğunu nümayiş etdirib.

Qoşunların şəxsi heyəti polis əməkdaşları ilə birgə işğaldan azad edilmiş ərazilərdə təhlükəsizliyin təmin olunması, həyat təminatlı mühüm əhəmiyyətli obyektlərin mühafizəsi, terror, təxribat və digər qanunazidd fəaliyyətin qarşısının alınması, giriş-çıxışın xüsusi rejiminin tətbiq edilməsi və digər mühüm vəzifələrin yerinə yetirilməsi üzrə qarşıya qoyulmuş tapşırıqların icrası həyata keçirilib.

Həmçinin mühüm beynəlxalq səviyyəli tədbirlərin, "Formula-1 Azərbaycan Qran-Pri" yarışının, o cümlədən futbol oyunları zamanı ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin olunması üzrə xidmətin aparılmasına cəlb edilən şəxsi heyət tərəfindən qarşıya qoyulmuş tapşırıqlar yüksək peşəkarlıqla, tam həcmdə icra edilib.

Daxili Qoşunların istehkamçıları tərəfindən işğaldan azad olunmuş ərazilərin mina və döyüş sursatı qalıqlarından təmizlənməsi üzrə qarşıya qoyulmuş xidməti-döyüş tapşırıqları uğurla yerinə yetirilib. Beynəlxalq idman tədbirləri zamanı da istehkamçıların fəaliyyəti qənaətbəxş olub.



Bundan əlavə, gündəlik xidməti fəaliyyətdə döyüş təlimi prioritet məsələ kimi qəbul edilib. Belə ki, hərbi qulluqçuların səhra təcrübəsinin artırılması, onların fərdi bacarıqlarının və birgə fəaliyyətlərinin təmini məqsədilə şəxsi heyət səhra təlimlərinə, atıcılıq məşqlərinə cəlb olunub, ixtisaslı hərbi qulluqçularla metodiki təlim toplanışları təşkil olunaraq keçirilib. Yarımil ərzində şəxsi heyətin döyüş hazırlığı mütəmadi olaraq yoxlanılıb.

İclasda Baş İdarənin bir sıra idarə, şöbə rəisləri və hərbi hissə komandirlərinin mövcud vəziyyət, diqqətçəkən nöqsan və çatışmazlıqların yaranma səbəbləri barədə hesabat-çıxışları dinlənilib. Çıxışlar zamanı qeyd olunub ki, ümumilikdə, hərbi hissələr qarşıya qoyulmuş tapşırıqlardan irəli gələn vəzifələri tam həcmdə yerinə yetiriblər.

Hərbi Şuranın iclasına yekun vuran Daxili qoşunların komandanı 2023-cü ilin 1-ci yarımilində Daxili Qoşunların xidməti-döyüş fəaliyyətini ümumən qənaətbəxş hesab edərək, aidiyyəti idarə, şöbə, xidmət rəislərinə və hərbi hissə komandanlıqlarına tapşırıqlar verib, qoşunların şəxsi heyətinin bundan sonra da, xalqa və dövlətə sadiqliyini nümayiş etdirərək layaqətlə xidmət edəcəyinə, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin diqqət və qayğısına cavab olaraq, Daxili işlər nazirinin əmr və göstərişlərindən irəli gələn vəzifələri bundan sonra da layiqincə yerinə yetirəcəyinə, polis orqanlarının əməkdaşları ilə birgə ölkədə ictimai asayişin və sabitliyin keşiyində mətinliklə dayanacağına əminliyini diqqətə çatdırıb.

**Mətbuat xidməti**

# DÖYÜŞ HAZIRLIĞININ YÜKSƏK SƏVİYYƏDƏ SAXLANILMASI ƏSAS HƏDƏFİMİZDİR

Hərbi hissələrimizdə fəaliyyət göstərən xüsusi təyinatlıların silahlı cinayətkarların axtarılması, tutulması, zərərsizləşdirilməsi istiqamətində həyata keçirdikləri xidməti-döyüş fəaliyyətini təqdirəlayiqdir.

16075 saylı hərbi hissənin komandiri polkovnik İlkin Gözəlov xüsusi təyinatlı dəstənin xidməti-döyüş fəaliyyəti barədə danışarkən bildirdi ki, dəstə qarşıya qoyulan tapşırıqları uğurla yerinə yetirməyə hər an hazırdır. Hərbi qulluqçulardan kifayət qədər fiziki güc və möhkəm iradə tələb edən təlimlərdə iştirak edən xüsusi təyinatlılar yüksək peşəkarlıq və xüsusi fədakarlıq nümayiş etdirirlər. Onların hərtərəfli hazırlığı bunu deməyə əsas verir.

Hərbi hissə komandirinin tərbiyə işləri üzrə müavini polkovnik-ley-





tenant Zamin Rəsulov xüsusi təyinatlı dəstənin 2023-cü ilin I yarımili ərzində xidməti-döyüş fəaliyyətinin yekunlarına görə hərbi hissə üzrə liderliyi qoruyub saxladığını nəzərə çatdırdı. Qeyd etdi ki, xüsusi təyinatlı dəstənin şəxsi heyəti 2020-ci il sentyabrın 27-dən başlayaraq torpaqlarımızın düşmən tapdağından azad edilməsi uğrunda gedən 44 günlük Vətən müharibəsində böyük cəsarət və qəhrəmanlıq nümayiş etdirib, dəstənin 6 nəfər hərbi qulluqçusu şəhidlik zirvəsinə ucalıb, 30 nəfəri isə yaralanıb.



Dəstə komandiri mayor Ələsgər Muxtarovun sözlərinə görə, hava şəraitindən asılı olmayaraq təlim-məşqlər davamlı olaraq keçirilir. Şəxsi heyətin döyüş təlimi Daxili işlər nazirinin müavini-daxili qoşunların komandanının müvafiq direktivinin tələblərinə əsasən təşkil edilir. Atəş və fiziki hazırlıqla yanaşı, xüsusi-taktiki hazırlıq, hərbi topoqrafiya, həmlə-desant hazırlığı, tək əsgərin döyüş təlimi, hərbi-tibbi hazırlıq, hərbi mühəndis hazırlığı və mütəxəssislərlə ixtisas hazırlığı üzrə məşğələlərin təşkili mütəmadi olaraq təkmilləşdirilir. Məşğələ mövzularının hərbi qulluqçular tərəfindən dərindən mənimsənilməsi məqsədilə çoxşaxəli tədbirlər görülür. Hərbi qulluqçuların təlim-tərbiyəsi, mənəvi-psixoloji hazırlığına diqqət yetirilir. Döyüş texnikasından bacarıqla və peşəkarcasına istifadə edə bilmələri üçün müxtəlif ərazilərdə məşğələlər keçirilir. Fiziki hazırlıq məşğələlərinin keçirilməsində yarımqrup komandirləri də xüsusi fəallıq nümayiş etdirirlər. Hərbi qulluqçulara cinayətkar dəstələrin zərərsizləşdirilməsi və tərk-silah edilməsi üzrə xüsusi metod və vasitələr öyrədilir, praktiki fəaliyyətə üstünlük verilir.



Mayor Ə.Muxtarov dəstənin döyüş hazırlığının yüksəldilməsində xüsusi təyinatlı dəstə komandirinin müavini-qərargah rəisi mayor Fərid Sucayevin xidməti tələblərə uyğun olaraq təşkil etdiyini, hərbi qulluqçuların mənəvi-psixoloji hazırlığının təkmilləşdirilməsində isə dəstə komandirinin tərbiyə işləri üzrə müavini kapitan Rəvan Abışovun əməyini vurğuladı.



Dəstə komandiri təlimlər zamanı şəxsi heyət tərəfindən təhlükəsizlik qaydalarına ciddi riayət olunduğunu bildirdi. O, həmçinin qəflətən qarşıya çıxan xidməti-döyüş tapşırıqlarının peşəkarcasına və müvəffəqiyyətlə yerinə yetirilməsində bundan sonra da yorulmadan hazırlıqların davam etdiriləcəyini qeyd etdi. Mayor Ə.Muxtarov intizamlı və fəal hərbi qulluqçulardan baş leytenant Emin Anaroğlu, baş çavuşlar Zahid Axundov, Fuad Abdullayev, Kamal Məmmədli və Musa Qədirovun adlarını çəkdi.



**kapitan Şahin Cəfərzadə**

4_Layout 1 14.07.2023 8:26 Page 1



# "ASAN KÖNÜLLÜLƏRİ" DAXİLİ QOŞUNLARIN MUZEYİNDƏ OLUBLAR

İyunun 28-də Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi 6 saylı Bakı "ASAN xidmət" mərkəzinin könüllüləri Daxili Qoşunların 67987 saylı hərbi hissəsində olublar. İlk olaraq, hərbi hissənin ərazisində şəhidlərin xatirəsinə ucaldılmış abidənin qarşısında şəhid hərbi qulluqçularımızın xatirəsi bir dəqiqəlik sükutla yad olunub, torpaqlarımızın işğaldan azad olunmasında onların göstərdikləri qəhrəmanlıq barədə danışılıb.



Daha sonra "ASAN Könüllüləri" Daxili Qoşunların Muzeyinə baş çəkiblər. Şəxsi heyət üzrə İdarənin mənəvi-psixoloji hazırlıq şöbəsinin muzey rəhbəri kapitan Sadıq Rəfiyev könüllülərə muzey barədə ətraflı məlumat verib. Bildirib ki, 2009-cu il may ayının 9-dan fəaliyyət göstərən muzey Daxili Qoşunların 67987 saylı hərbi hissəsinin ərazisində sahəsi 214 kvadratmetr olan 2 mərtəbəli binada yerləşir. Buradakı ekspozisiyalarda Daxili Qoşunların tarixi, döyüş yolu, inkişaf mərhələləri, xidməti fəaliyyətdə qazanılan nailiyyətlər əks olunub.



Kapitan S.Rəfiyev qeyd edib ki, Birinci Qarabağ müharibəsində Daxili Qoşunların döyüş yoluna aid sənədlər və eksponatlar da muzeyin tərtibatında diqqəti cəlb edir. Belə ki, Daxili Qoşunların komandanının döyüş əmrlərinin surətləri, şəxsi heyətin döyüşlər vaxtı istifadə etdiyi silahlar, rabitə vasitələri təqdim olunur. "Azərbaycan Respublikasının Milli Qəhrəmanı" adına layiq görülmüş 9 nəfər hərbi qulluqçumuzun şəkilləri əks olunan fotostend də muzeyin ekspozisiyasına daxildir.

Muzeydə həmçinin, 2020-ci ilin sentyabr ayının 27-dən noyabr ayının 9-dək davam edən və işğalçı Ermənistan dövlətinin kapitulyasiyası ilə başa çatan Vətən müharibəsində düşmənə qarşı rəşadətlə vuruşmuş Daxili Qoşunların şəxsi heyətinin ön cəbhədə çəkilmiş şəkilləri, eləcə də "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görülmüş 4 nəfər hərbi qulluqçu və Daxili Qoşunların Vətən müharibəsi şəhidlərinin şəkillərindən ibarət fotostend, həmçinin şəhid və qazilərin hərbi ləvazimatları, şəxsi əşyaları, məktəblilər tərəfindən ön cəbhəyə göndərilmiş məktublar da muzeydə əks olunub.

Ümummilli Lider Heydər Əliyevin həyat və fəaliyyətini, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin Daxili Qoşunlara diqqət və qayğısını əks etdirən guşələr isə qonaqların xüsusilə marağına səbəb olub.

Əlavə olaraq məlumat verilib ki, muzeydə nümayiş etdirilən və Daxili Qoşunların vəzifələrini, ictimai təhlükəsizliyin keşiyində fəaliyyətini, beynəlxalq hərbi əməkdaşlıq əlaqələrini, əlamətdar tədbir və mərasimlərdə iştirakını əks etdirən müxtəlif eksponatlar qoşunların dünəni və bu günü barədə dolğun təsəvvür yaradır.

"ASAN Könüllüləri" Daxili Qoşunların Muzeyindən xoş təəssüratlarla ayrılıblar.

**kapitan Xədicə Hacızadə**

*Həkim məsləhəti*

# GÜNVURMA VƏ İSTİVURMANIN TƏSİRİNDƏN NECƏ QORUNMALI?

Yay mövsümündə havanın hərarətinin yüksək olması, atmosfer təzyiqinin normadan yuxarı qalxması insanlarda, xüsusən də meteohəssas insanlarda ciddi fəsadlar yaradır. Qızmar günəş şüaları altında uzun müddət fasiləsiz işlə məşğul olmaq, yürüşlər etmək insanları gün və istivurma kimi real təhlükələrlə üzləşdirir. Bu baxımdan belə təhlükələrdən qorumaq məqsədilə şəxsi heyətin tibbi maarifləndirilməsi mühüm əhəmiyyət kəsb edir.

Günvurma günəş şüalarının uzun müddət ərzində orqanizmə təsiri nəticəsində baş verir. Günvurma, əksər hallarda, başıaçıq xeyli müddət gün altında qaldıqda baş verir. Belə hallarda gün şüalarının təsiri nəticəsində baş beyinə qan axını artır və beyinin qan dövranı pozulur. Bu zaman zərərçəkəndə zəiflik, başgicəllənmə, güclü baş ağrıları, qulaqlarda küy, təngnəfəslik, nəbzin tezləşməsi, üşütmə, ürək bulanması, qusma, hərarətin 40 və daha artıq dərəcəyə yüksəlməsi kimi əlamətlər qeyd edilir. Ağır hallarda qıcolmalar və huşun itirilməsi də ola bilər. Bəzi hallarda bu əlamətlər dərhal, digər hallarda isə açıq günəş altında qaldıqdan və evə gəldikdən bir neçə saat sonra baş verir.

**Günvurmanın ilkin əlamətləri hiss olunduqda:**

**1.** Zərərçəkəni kölgəyə və ya sərin otağa aparmaq, onu sıxan paltarları çıxarmaq, yarıoturaq vəziyyətdə uzatmaq lazımdır (başı bədənindən yuxarıda olmalıdır).



**2.** Zərərçəkənə soyuq su vermək, üzünü və sinəsini soyuq su ilə silmək, başına, boyunun yan tərəflərinə, qoltuqaltı və qasıq nahiyələrinə (iri damarlar keçən yerlər) buz və ya bu mümkün olmadıqda soyuq su ilə kompres etmək lazımdır. Bu zaman əl və ayaqlara xardal kağızı da qoymaq olar. Daha bir üsul isə paltarını soyundurub zərərçəkəni soyuq suda isladılmış parçaya bükmək, başına buz qoymaqdır.

**3.** Zərərçəkənin hərarəti normaya çatdıqda onu quru parçaya və ya dəsmala bükmək olar.

**4.** Xəstənin vəziyyəti ağırlaşarsa, dərhal təcili tibbi yardım çağırmaq lazımdır.

**5.** Huşunu itirdiyi halda isə zərərçəkənə naşatır spirti iylətmək, tənəffüs olmadıqda süni tənəffüs vermək tələb olunur.

**İstivurma əsasən uzun müddət ərzində havası boğanaq olan yerlərdə (hamamda, saunada, avtobusda, metroda və s.) qalma zamanı, çölə çıxarkən havaya uyğun olmayaraq çox isti geyimdən istifadə edildiyi hallarda, çimərlikdə voleybol, futbol və s. oyunlar oynanıldığı zaman baş verir. Uşaqların və yaşlı adamların orqanizmində istilik mübadiləsi zəif şəkildə tənzimləndiyi üçün istivurma onlarda daha tez-tez baş verir.**

İstivurma, bir çox halda, qəflətən meydana çıxır: ilk baxışdan kifayət qədər sağlam görünən insan birdən-birə əzgin olur, onun hərarəti 40 və daha artıq dərəcəyə yüksəlir, bəzi hallarda qıcolmalar, sayıqlama və halusinasiyalar (qarabasmalar) qeyd edilir. Xəstənin sifəti əvvəlcə qızarır, sonra isə birdən-birə avazıyır. Nəbz sürətlənir, çətinliklə əllənir, tənəffüs səthi olur, bəzən qusma da qeyd edilir.

İstivurma zamanı ilk tibbi yardım günvurmada olduğu kimidir.

Zərərçəkənin vəziyyəti ağırlaşarsa, dərhal təcili tibbi yardım çağırmaq və ya ilk tibbi yardım göstərdikdən sonra onu mümkün qədər tez bir zamanda yaxınlıqdakı tibb müəssisəsinə çatdırmaq tələb olunur.

Çimərlikdə olarkən alkoqollu içkilərin qəbulu qəti şəkildə qadağandır. Alkoqol orqanizmdə termoriqulyasiyanı (istiliyin tənzimi) kəskin şəkildə pozduğu üçün bu istivurmanın səbəbi ola bilər.

**DQBİ-nin Tibb xidməti**

## HƏRBİ XƏBƏRLƏR ·YENİLİKLƏR·

### İsrail ABŞ-dan 25 ədəd F-35 qırıcısı alacaq

ABŞ İsrailə F-35 qırıcılarının satışını təsdiqləyib. Ordu.az xəbər verir ki, bu barədə İsrail Müdafiə Nazirliyi məlumat yayıb.

Qeyd olunub ki, ABŞ-la 25 ədəd "F-35 Lightning II" döyüş təyyarəsinin alınması üçün müqavilə imzalanıb. Müqavilənin dəyəri 3 milyard dollar olub.

Bunula da İsrail F-35-lərinin sayını 75-ə yüksəldəcək.



*İdman*

# HƏRBİ QULLUQÇUMUZ YAY OLİMPİYA OYUNLARINA VƏSİQƏNİ QAZANIB

Daxili Qoşunların İdman komandasının hərbi qulluqçuları istər ölkəmizdə, istərsə də dünya arenalarında təşkil olunan çempionatlarda Vətənimizi layiqincə təmsil etmiş, doğma Azərbaycanımızın bayrağını şərəflə dalğalandırmışlar. İndi haqqında danışacağımız idmançı 2022-ci ildən bu günə kimi davamlı nailiyyətləri ilə Daxili Qoşunları lazımi səviyyədə təmsil etmiş İdman komandasının hərbi qulluqçusu əsgər Murad Allahverdiyevdir. Hələ uşaqlıq illərindən idmana böyük marağı olan Murad 5 yaşdan həvəskar idmanla məşğul olmağa başlayıb. Peşəkar idmana isə 2016-cı ildən etibarən başlayıb.




Qazandığı uğurlarla tanınan Daxili Qoşunların İdman komandasının müddətli həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər M.Allahverdiyev həm respublika çempionu, həm də Avropa çempionatının qalibi, peşəkar boksçu kimi növbəti qələbə xəbərini Polşanın Krakov şəhərindən verdi. Belə ki, iyunun 21-dən iyulun 2-nə kimi Polşanın Krakov şəhərində keçirilən III Avropa Oyunlarında uğurlu çıxışı ilə yadda qalıb. Qeyd edək ki, 48 ölkədən 7000-dək idmançının iştirak etdiyi yarışda Azərbaycan 86 idmançı ilə təmsil olunub. Boks idman növü üzrə ölkəmizi təmsil edən cəngavərimiz 80 kq çəkidə tatamiyə çıxıb, final mərhələsində Almaniya, Finlandiya və Ermənistan idmançısına böyük hesabla qalib gələrək 3-cü yerə sahib olub. Hər 3 görüşdə qələbə qazanması ilə həmçinin 2024 Yay Olimpiya Oyunlarına vəsiqəni təmin edib.

Ölkəmizin bayrağını, himnini bütün dünyada tanıtmağı qarşısına məqsəd qoyan əsgər M.Allahverdiyevə biz də bol-bol şanslar arzulayırıq.

**kapitan Nigar Ağayeva**

*NÜMUNƏVİ XİDMƏT*

# DÖYÜŞ TƏCRÜBƏSİNƏ MALİK SÜRÜCÜ

Daxili Qoşunların sıralarında hərbi xidmət keçən baş çavuş Tural Qandaxov vəzifələrini məsuliyyətlə, vicdanla yerinə yetirir.

O, 1989-cu ilin iyun ayının 20-də Zaqatala rayonunun Göyəm kəndində doğulub. Orta təhsilini 1995-2006-cı illərdə doğma kəndində alıb. 2007-ci ilin iyul ayından 2009-cu ilin yanvar ayınadək Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət keçib. 2012-ci ildə Daxili Qoşunların sıralarına müddətdən artıq həqiqi hərbi xidmətə qəbul olunub. 17072 saylı hərbi hissənin xüsusi vasitələrin tətbiqi bölməsinin götürmə qrupunun atıcısı, 2013-cü ildə xüsusi təyinatlıların kursunu müvəffəqiyyətlə bitirərək xüsusi təyinatlı dəstənin atəş təminatı qrupunun pulemyotçusu, 2022-ci ilin avqust ayında isə 25033 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin atəş təminatı qrupunun iriçaplı pulemyot yarımqrupunun sürücüsü vəzifəsinə təyin edilib. Hər zaman nümunəvi xidmətilə seçilib, komandirləri tərəfindən dəfələrlə mükafatlandırılıb.



2020-ci ilin sentyabr ayının 27-dən başlayaraq ön cəbhənin müxtəlif istiqamətlərində Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda vuruşub. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə baş çavuş T.Qandaxov "Füzulinin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə", həmçinin Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq sərəncamına əsasən, "Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif olunub.

Funksional vəzifələrinin icrasına vicdanla yanaşan hərbi qulluqçu verilən tapşırıqları yüksək səviyyədə yerinə yetirmək üçün əlindən gələni əsirgəmir.

**kapitan Şahin Cəfərzadə**

# NÜMUNƏVİ, BACARIQLI RABİTƏÇİ

17072 saylı hərbi hissənin nümunəvi xidmətilə fərqlənən hərbi qulluqçularından biri əsgər Hüseyn Həsənovdur. O, 2004-cü il fevral ayının 26-da Masallı rayonunun Təzə Alvadı kəndində anadan olub. Daimi yaşayış yeri Cəlilabad rayonunun Göytəpə şəhəri olduğuna görə orta təhsilini 2010-2021-ci illərdə orada yerləşən Vüqar Mürsəlov adına 1 saylı tam orta məktəbdə alıb. 2022-ci ilin aprelin 1-də Daxili Qoşunların 25031 saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmətə qəbul olunub. Daxili Qoşunların 25032 saylı hərbi hissəsində kiçik mütəxəssislər hazırlayan tədris bölüyündə rabitəçi kursunu bitirdikdən sonra 17072 saylı hərbi hissənin təminat bölüyünün rabitə taqımının radiotelefonçusu vəzifəsinə təyin olunub.



Funksional vəzifələrinin icrasına məsuliyyətlə yanaşan hərbi qulluqçu verilən tapşırıqları dəqiq və keyfiyyətlə yerinə yetirir.

Daxili Qoşunlarda xidmətilə fəxr edən əsgər H.Həsənov hər bir gəncin Vətənə olan borcunu layiqincə verməsinin və komandirlər tərəfindən qoyulan tapşırıqların icrasının dəqiq yerinə yetirilməsinin vacibliyini vurğuladı.

Həm hərbi hissə komandiri, həm də rabitə xidmətinin rəisi mayor Ruslan Məmişov tərəfindən müsbət xarakterizə olunan əsgər H.Həsənov nümunəvi xidmətinə görə dəfələrlə mükafatlandırılıb.

**17072 saylı hərbi hissənin ştatdankənar müxbir postu**

## Allah rəhmət eləsin

Daxili Qoşunların komandanlığı mayor Əfqan Qurbanlıya **bacısının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

TƏSİSÇİ:
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: Anar Əhmədov

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000